# Mübarizələrdə kamilləşən qəhrəman

Ömür yoluna unudulmaz səyahət macəraları qatmış bütün yazarlar kimi Corc Bayronun da İngiltərəni tərk etdikdən sonrakı Avropaya səyahəti yeni bir romanın yaranmasına səbəb olub - “Çald Haroldun ziyarəti” (“Childe Harol's pilgrimage”). Müəllifin müasiri olan tənqidçilər onun hansı əsərini avtobioqrafik olduğunu iddia etsə, Bayronun kəskin etirazı ilə qarşılaşıb. O, “Çald Haroldun ziyarəti”nin də avtobioqrafik səciyyə daşımadığı hökmünü irəli sürsə də, əksini sübut edən ciddi faktlarla qarşılaşıb. Spenser stanzaları adlanan doqquz misralıq şeir üstündə yazılmış hekayədə həyatını duyğularının və zövqlərinin ixtiyarına vermək istədiyi üçün doğma torpaqlarını tərk edən aristokrat gəncin macəraları qələmə alınıb. Eynilə Bayronun İngiltərədən baş götürüb getməsi kimi Çald Haroldun səyahəti də məqsədsizdir. Hekayənin əvvəlində bu qaçışın əsl səbəblərinə aydınlıq gətirilməsə də, sonrakı kantolarda bu uzaqlaşma, axtarış psixoloji yenilənmə arzusu ilə əlaqələndirilib. Bəlkə də, ictimai qınaqla üzləşmiş bir məhəbbət macərasından qaçış da ola bilər. Üstəlik ənənəvi Bayron üslubu əsərdə o qədər hamimdir ki, oxucu üçün Haroldu azad bir aristokrat kimi təhkiyəçidən fərqləndirmək çətinləşir.



İlk kantoda Napoleon ordusunun Britaniya və İspaniya qoşunları ilə toqquşduğu yerlərin təsviri fonunda Haroldun Portuqaliya və İspaniya səyahətləri canlandırılıb. Baş qəhrəmanı məhz müharibə meydanına çevrilmiş ərazilərə, şəhərlərə aparmaqla Bayron həm öz xatirələrinə yer verir, həm də savaşın yekunlarını, Fransa imperiyasını süquta sürükləyən səbəbləri göstərir. Bu hissədə müharibə dövründə dünyanı heyrətə salmış Araqon qadınlarının təsvirinə geniş yer verilib. Bayron onları Amazon qadınları, yunan döyüşçüləri ilə müqayisə edir. Onlar döyüşmək üçün hərbi təlimlər almasalar da, cəsarətləri və fiziki gücləri hesabına əsl savaşçı kimi davranırlar. Bu keyfiyyətlərin heç birinə sahib olmayan Haroldun melanxolik abu-havası və mənəvi boşluqda çırpınan ruhu da birinci hissədə kontrast təsvir kimi ön planda dayanır. Harold onu doğmalarından, vətənindən uzaq salan səbəblərin ağırlığından qurtula bilmir. Gəzdiyi yerlərdə tanıdığı insanlar tərəfindən göstərilən sevgi, qayğı, insanların müharibə dəhşətlərinə meydan oxuyan şənlikləri belə onu sevindirmir. Çünki o, qayğı və sevgi ilə əhatələnmiş həyatını sevimli anası, bacısı, dostlarıyla belə vidalaşmadan tərk etmişdi. O, artıq bütünlüklə həyatdan zövq ala bilmədiyini təsadüfən qatıldığı buğa döyüşündə anlayır.

Sonra Şərqin ovsunlu aləminə yaxından bələd olan Bayron müşahidələrini və məlumatlarını bölüşmək üçün Osmanlı İmperiyasına və onun əsarətindəki yunan torpaqlarından bəhs edir. Burada isə Osmanlının Şərq ənənələri Yunanıstanın əzəmətli heykəltəraşlıq, rəssamlıq nümunələri, daş tikililəri ilə qarşılaşdırılır. Başqa bir ölkənin əsarəti altında yaşamağı qəbul etmiş yunan xalqının təslimiyyətçiliyi isə Afinanın və qüdrətli tarixin simvolları olan heykəllər, meydanlar, qəsrlər ilə qarşı-qarşıya qoyulur. Bayron addım-addım gəzdiyi Afinanın təsvirinə geniş yer ayırır. Canlı təsvirlər arasında Bayronun dövründə avropalıların haqqında çox az şey bildikləri Albaniya səyahətindən təəssüratlar da ön plandadır.

Əsərin üçüncü hissəsi birinci və ikinci hissədən çox sonra yazılıb. Bu isə üçüncü hissədə qarşılaşdığımız dil, üslub, ton fərqində özünü göstərir. Burada daha qapalı və incik bir Bayron tərzi var. Uzunmüddətli sürgün həyatı, sevdiyi insandan ayrılmaq, bir sığınacaq tapa bilməmək şairin emosional balansını pozur. Artıq özü kimi baş qəhrəman Çald da bu sürünməkdən qurtuluşu yalnız qalmaqda, təbiətə uyğunlaşmaqda, dağ yamaclarında, okean sahillərində görür. Bu hissədə yenidən müharibə meydanlarında yaşananlar, Belçika sərhədlərindəki Voterlo döyüşü, Napoleonun acgöz istilasının gedişatı zamanzaman ön plana çəkilir. İsveçrə səfərində Bayron çağdaşlarının yaradıcılığı ilə tanış olmağa başlayır. Burada məskunlaşdığı ilk zamanlarda Russonun, Şelli və Vördvörsün fəlsəfi ideyalarını qəbul etməsə də, məlumatlanır. Üçüncü hissə kədərli başlasa da, şairin bütün melanxolizminə baxmayaraq, optimist baxışla, ümidlə bitir - insan üçün bəşəri fenomenlik çox vaxt imkansız olsa da, xoşbəxtlik və xeyirxahlıq hər zaman əlçatandır.

Dördüncü kanto isə Haroldun İtaliya səfəri və Bayronun Venesiya gəzintiləri ilə başlayır. “Əsrlər sonra da gözəlliyini və əzəmətini qoruyacaq” Venesiyada Çald Haroldun xoşbəxtlik ümidini itirmək üzrə olduğu görünür. Belə ki, artıq sosial-mədəni çevrəsinin psixoloji şiddətindən qaçaraq, ayrıldığı vətəninin, qızının həsrəti Bayronun iradəsini küncə sıxışdırır. Qarşımıza hər addımda qayıda bilməyəcəyi bir dünənin həsrətini çəkən qəhrəman çıxır. Artıq ölümünü, İngiltərəyə qayıdan, doğma torpağına qovuşan ruhunun xoşbəxtliyini xəyal edir. Nümunə Bayronun insan gücünün əhəmiyyətsizliyi, mübarizəsinin mənasızlığı, ruhunun sirri haqqındakı monoloqu ilə bitir.

### HADİSƏLƏRİN TARİXÇƏSİ

“Çald Haroldun ziyarəti” müəllifin ilk xarici səfərindən etibarən yaranmağa başlayıb. İspaniya, Portuqaliya, Albaniya və Yunanıstan kimi onu daha çox heyran qoymuş yerlərin təsvirləri daha geniş əks olunub. Əsərin ilkin adı “Çald Burun” olub. Burun isə Bayronun uşaqlıq illərindəki əzizləmə adıdır. Çald isə hələ bir soyad və status almamış alicənab gəncə işarə edir. Spenserian stanza janrını isə müəllif Edmund Sperserdən götürüb. Bayronun fikrincə, doqquz sətirlik şeir formasında həm təsviri, həm duyğunu, həm fikri tamamlamaq olur.

İlk iki kanto 1812-ci ildə işıq üzü görür və Bayron rədd olunduğu Londonun sosial-ədəbi dairələrində misli görülməmiş məşhurluq qazanır. Müəllifin imtinalarına baxmayaraq, Haroldun elə Bayronun hekayəsində işçi olduğuna inananlar isə onu yenə rədd edir. Bu qarışıqlığa isə elə müəllif özü əsas yaradır - bir tərəfdən səyahətlərə ara verəndə, yazmağa da ara verir, digər tərəfdən isə bir qəhrəmanın təxəyyül məhsulu olan əsər yazdığını deyərək, öz macərasına haqsızlıq edir. Digər tərəfdən isə oxucu açıq-aşkar sezir ki, Harold gənc və aristokrat olsa da, qətiyyən təcrübəsiz deyil. Onun yaşadığı psixoloji sarsıntılar, özünü tabe tutduğu fəlsəfi sorğu-suallar qətiyyən yaşına uyğun dərinlikdə deyil. Çald Haroldun sirli keçmişi ilə bağlı oxucu əsla məlumatlandırılmır. Sanki Bayron Haroldun keçmişini öz keçmişi kimi gizlədir. Çald Harold Bayronik qəhrəmanların ümumiləşdirilməsidir.

### SÜJET

Bayronun üslubunda bir mövzuya köklənmək ümumiyyətlə, müşahidə olunmur. Baş qəhrəmanın “zehnini aydınlandıracaq işıq” axtarışı ilə başlayan macərası sonradan Çald Haroldun dünyada öz kimliyini anlaması kimi fəlsəfi bir mövzuya keçid alır. Lakin onun dünyaya və cəmiyyətə düşmənliyi yadlaşma ilə müşahidə olunmur. Çald hər fürsətdə cəmiyyətlə uzlaşmağa, bütövləşməyə hazırdır, lakin öz prinsip və xarakterinə sadiq qalmaq və buna hörmətlə yanaşılması şərtilə. Bu prinsiplər isə adətən romantik sevgi hekayələrində uğursuzluqlar yaşamış qəhrəmanlara xas olsa da, Bayron bunu azadlıq axtarışlarına çıxmış qəhrəmanın meyil etdiyi siyasi axınlara bağlayır. Napoleon tiranlığı haqqındakı monoloqda bu, olduqca uğurlu alınıb.




Bir çox süjetə bağlı məsələni birləşdirməkdə müəllifin əsas məqsədi, protoqonist qəhrəmanın öz rolunu anlamasına, yolunu tapmasına kömək etməkdir. Elə hekayənin kulminasiyası da Haroldun məqsədə çatdığı səhnələrdə reallaşır. Öz yerini, mənasını, yolunu təyin edən Çald Harold artıq daha əmin və güclüdür. Heyranlıq, təəccüb, ürək ağrısı ilə seyr etdiyi əhliləşdirilməmiş həyat tərzi, antik Roma qalıqları, müharibə meydanlarındakı mübarizə səhnələri ona çox şey öyrətsə də, heç birinə qarşı onda ayrılmaz məhəbbət yoxdur. Yaşının az olmasına baxmayaraq, bu “harasa, kiməsə bağlı olmamaq” duyğusunun onu sürətlə qocaltdığını hiss edir. Çald Haroldun Bayronun digər qəhrəmanlarından əsas üstünlüyü ondadır ki, qəhrəman daxili dünyasında və həyatındakı əskiklikləri dəqiq bilir. Həyata daha mənalı yollarla davam etmək üçün yeni yaradıcı bir üslub tapmalı olduğunu bilir. Yeniyetməlikdən yetkinliyə doğru şüurlu, zamanın və təcrübələrin fərqinə vararaq irəliləmək yorğun, həyata bağlılığı zəiflləmiş baş qəhrəmanı məqsədə daha sürətlə yaxınlaşdırır. Belə ki, üçüncü və dördüncü kantolarda hər şeydən gileylənən qəhrəmandan çox, həyatla barışmış, növbəti sınaqlara hazır bir Çald Harold, Bayron prototipi görürük.

Mənbə: “enotes.com”-da Tnan Munozun elmi işinin mətnindən hissələr

**İngilis dilinən tərcümə edən:**
**Elcan Salmanqızı**